# FOLKLORŞÜNASLIQ VƏ MİFOLOGİYA

*Ə.Əliyeva.İnsanların yaradılışında çevrilmə formulu: transformativ keçidlər // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.213-221.*

UOT: 398

**Əsmər Əliyeva**
*AMEA Rəyasət Heyəti,*
*Humanitar Elmlər Bölməsi*
*Bakı ş. İstiqlaliyyət küç.30.*
*e-mail: bashirova116@gmail.com*

## İNSANLARIN YARADILIŞINDA ÇEVRİLMƏ FORMULU: TRANSFORMATİV KEÇİDLƏR

*Çevrilmə folklor motivi kimi Azərbaycan folklorunda zəngin tip və formalara malikdir. Bu motivin tədqiqi ona ilk növbədə mifoloji semantika kontekstində yanaşmanı tələb edir. Çünki çevrilmə motivinin əsasında mifik düşüncəyə xas olan çevrilmə formulu durur.*

***Açar sözlər:*** *çevrilmə, transformativ keçidlər, folklor mətnləri, insanların yaradılışı*

**Giriş**

*Tədqiqatçılara görə, folklordakı çevrilmələr öz mənşəyini təbiətdəki "çevrilmələrdən" götürür. R.Qafarlı yazır ki, insan dəyişən nə görürdüsə, onu simvolik obraza çevirirdi. Bu cür zahiri çevrilmələr və əvvəlki hala qayıdışlar təbiəti canlı varlıq kimi təsəvvürə gətirirdi (8, 86).*

*Bu cəhətdən Azərbaycan folklorunda çevrilmə motivinin bir elmi problem kimi tədqiqi motivin ilk növbədə mifik semantikasının öyrənilməsini, daha sonra isə onun folklor mətnlərində funksiyalaşma imkanlarının tədqiqini tələb edir.*

Azərbaycan epik folklorunun əsas struktur formullarından olan çevrilmə şəkil dəyişmə, metamorfoza, forma dəyişmə, surət dəyişmə, libasdəyişmə, paltardəyişmə, dönmə, başqalaşma, dönərgəlik, eləcə də maskalanma kimi ifadə edilən bu dəyişim – çevrilmə prosesi şifahi xalq ədəbiyyatının müxtəlif nümunələrində fərqli formalarda özünü göstərir. Müxtəlif terminlərlə ifadə edilən bu motiv "çevrilməni" bir proses kimi bütün daxili mərhələləri ilə əhatə edir.

Mifik düşüncədə yaradılışla bağlı mövcud olan bütün nümunələrdə çevrilmə formulu mühüm rol oynayır. Hər şeydən öncə yaradılışın ümumi kosmoqonik sxemində xaosun kosmosa çevrilməsi əks olunur. Bir çox tədqiqatlardan gördüyümüz kimi, kainatın, dünyanın, eləcə də digər obyektlərin, predmetlərin yaradılması elmi cəhətdən xaosun kosmosa çevrilməsi nəticəsində baş verir. Mifoloji düşüncədə yaradılış dünyanın müxtəlif səviyyələrini əhatə edir və insanlar ətraf aləmdə gördüyü bütün varlıqların meydana gəlməsinə bu metodu şamil etmişlər.

Mifologiyada dünyanın və insanın yaranması ayrılmaz və vahid proses kimi təsəvvür olunur. İlkin insanın yaradılması haqqında mifologiyada müxtəlif transformativ keçidlər mövcuddur. Bu zaman çevrilmə formulu əsas rol oynayır. Azərbaycan folklorunda insanların yaradılması ilə bağlı olan çevrilmə motivləri dünya və türk xalqlarının folklor mətnlərində istifadə edilmiş nümunələrlə oxşarlıq təşkil edir.

İlk insanın yaradılması (antropoqonik) ilə bağlı miflərdən bəhs edən F.Bayat qeyd edir ki, kosmosun yaradılmasından sonra yer, dağ, meşə, heyvan və ən sonunda da insan yaradılmışdır. İlk insanın yaradılması müxtəlif şəkillərdə söylənsə də, bütün hallarda ilk insanın Tanrı tərəfindən yaradıldığı bildirilir. Mif ilk insanın yaradılmasını Tanrı və ya demiurq (tanrısal xüsusiyyətə sahib olub, mədəni obyekt və faktların ilk qurucuları) adına bağlıyır. İlk insanın yaradılması mifi kosmoqonik mifin təbiətdən cəmiyyətə keçidini işarələyir və kosmoqonik dilin ictimai dilə çevrilməsini saxlayır" (2, 94).

Folklor nümunələri üzərində apardığımız müşahidələr göstərir ki, insan, əsasən, üç transformativ keçid nəticəsində yaranır: a) Torpağın (palçığın) insana çevrilməsi; b) Heyvanın insana çevrilməsi; c) İnsan görkəmli varlıqların müasir insana çevrilməsi.

Bu keçidləri ardıcıllıqla nəzərdən keçirək

**a) Torpağın (palçığın) insana çevrilməsi:**

Türk tayfalarının yaşamında və düşüncəsində Tanrının üstün mövqe tutması, eləcə də tək Tanrıya inamın hakim ideologiyaya çevrilməsi, onların mifologiyasında təktanrıçılığın insanın yaradılışının transformativ amili kimi prioritet mövqeyini şərtləndirir. Təktanrıçılıq ideyası türklərlə qonşuluqda yaşayan, eləcə də onların qaynayıb-qarışdıqları xalqların da mifoloji təfəkkürünün formalaşmasına təsirsiz ötüşməmişdir.

Yaradılışla bağlı ilk türk nümunələrindən olan **türk (Altay) yaradılış dastanı**nda da dünyanın və insanların ən ali varlıq – Tanrı tərəfindən yaradılması, daha sonrakı çevrilmələrlə müasir vəziyyətinə düşməsi ideyası tərənnüm edilir. Çevrilməyə məruz qalan insan müxtəlif formalara düşür, hətta ona məxsus olan bəzi keyfiyyətlərini itirir. Dastanda insanın qeyd olunan dəyişikliklərə uğramasına onun öz yaradıcısı ilə çiyin-çiyinə getmək, ona şərik olmaq istəyi səbəb olur. İnsan tanrının göstərişlərini düşüncəsizcəsinə yerinə yetirmək istəmir. Güclü və qüdrətli tanrı insanı ən ağır cəzalara məhkum edəndə də insan əyilib acizcəsinə itaət göstərmir və beləliklə, nəticədə cəza olaraq hər dəfə yeni bir çevrilmənin şahidi oluruq. Türk (Altay) yaradılış əsatirində (6, 45-52) əks olunmuş bəşəriyyətin, ilk bəşər övladının yaranması, eləcə də müasirləşməyə doğru keçirdikləri dəyişimlərə diqqət edək:

1. "Bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən, sudan başqa görünən yox idi. Ağ Ana göründü. O, Qara xana "yarat" deyib yenidən suya daldı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istədiyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Boğulurdu. Elədiyinə peşman olub Tanrı Qara xandan bağışlanmasını xahiş etdi".

Bu mətndə insan mövcud nizamı pozmağa – Qara xandan daha üstün mövqe əldə etməyə çalışır, lakin sonuncunun qəzəbinə tuş gələrək uçmaq bacarığından məhrum edilir və **indiki şəklində olan insana çevrilir**. Bu nümunə iki əsatir qəhrəmanı arasındakı ilk kolliziyadır, belə ki, iki qara qazdan biri fövqəltəbii gücə, yaratmaq bacarığına malikdir, digəri isə bu keyfiyyətlərdən məhrumdur, dəyişimlərə məruz qalan tərəfdir.

2. "Tanrı Qara xanın göstərişi ilə sudan bir ulduz çıxdı. Kişi həmin ulduzun üstünə çıxıb xilas oldusa da, Qara xan onun bir daha uça bilməyəcəyini nəzərə alıb dünyanı yaratmaq qərarına gəldi. Kişiyə buyurdu ki, suyun dibinə dalaraq torpaq çıxarsın. Şər düşüncədən əl çəkməmiş kişi torpaq gətirərkən fikirləşdi ki, özü üçün gizli bir dünya da yaratsın, ona görə də torpağın bir hissəsini ağzında saxladı. Elə ki, ovcundakı torpağı su üzərinə səpdi, Tanrı Qara xan torpağa "böyü" deyə buyurdu. Torpaq böyüyüb dünya oldu. Lakin kişinin ağzında saxladığı torpaq da böyüyüb onu boğmağa başladı. Qara xan ona "tüpür!" deməsəydi,

boğulub öləcəkdi. Tanrı Qara xan dümdüz bir dünya yaratmışdı, lakin kişi tüpürəndə ağzından çıxan torpaq bataqlıqlar, təpələr əmələ gətirdi. Hirslənən Qara xan itaətsiz kişiyə "Erlik" (şeytan) adını verib, özünün işıqlı dünyasından qovdu."

Burada da İnsan öz nəfsini cilovlaya bilmir və yenidən Tanrı Qara xan tərəfindən bərqərar edilmiş nizamın pozulmasına səbəb olur. Belə ki, İnsan ağzındakı torpağı tüpürür və **hamar səthli, düzənlik dünya bataqlıq, dərələr və təpələrlə nahamarlaşmış məkana çevrilir**.

3. "Sonra yerdə doqquz budaqlı bir ağac bitirdi, hər budağın altında bir adam yaratdı ki, bunlar doqquz insan irqinin ataları oldular".

Burada isə insanın yaradılışı ilə bağlı növbəti çevrilmə baş verir. Tanrı Qara xan **ağacın budaqlarını insana çevirir,** beləliklə, gələcəkdə törəyib-çoxalacaq millətlərin əcdadlarını yaradır.

4. "... Mübarizədə Qara xanın ən ağıllı köməkçisi Ulu Kişiyə məğlub olmuş Erlik yenə təslim olmur. O, ölən insanların canını almağa icazə istəyir, yenə razılıq ala bilmir. Qara xan ona deyir ki, bacarırsansa ölümlü insanı özün yarat. Bu icazəni alan kimi o, əlinə çəkic, körük və ors (ərsin) alıb eybəcər heyvanlar düzəldir: qurbağa, ilan, ayı, donuz və pis ruhları yer üzünə doldurur. Qara xan hirslənib onun əlindəki alətləri alır və atır. **Körükdən qadın, çəkicdən kişi yaranır.** Qara xan onların üzünə tüpürəndə qadın əti yeyilməyən, tükü gərəksiz quşa, kişi Yolban deyilən **quşa çevrilir**" (6, 46).

Burada növbəti çevrilmə ilə yaranma hadisələrini görürük. Dağların, qayaların, heyvanların yaranmasında kosmik nizamın pozulmasına səbəb olan Erlikin itaətsizliyi həmçinin çevrilmələrin də baş verməsinə səbəb olur. Bəhs olunan əsatirdə insan bir neçə prosedurda yaranır. Bunların bəziləri, yuxarda qeyd etdiyimiz kimi, cəza olaraq çevrilmələrlə yaranmışdır ki, onlar Yer üzündə davamlı yaşamağa nail olmurlar. Erlikin pis niyyətlərinin həyata keçirilməsi üçün yaratdığı insanlar çevrilmə hadisəsi ilə öz ilkinliyini itirir. Amma Tanrı Qara xanın qolsuz-budaqsız bir ağaca doqquz budaq verərək törətdiyi insanlar uzun yaşamağa nail olurlar. Gördüyümüz kimi, mifoloji düşüncədə kosmoqonik proses müəyyən zaman və məkan sərhədləri olan dövri hadisə kimi qavranılaraq, çevrilmələrlə əks olunur.

Tək və böyük, rəhmli və mərhəmətli, heç bir tayı-bərabəri, bənzəri olmayan haqq-hesab gününün sahibi ulu Allahdır. Türk mifologiyasında da ən ali varlıq Tanrıdır. İnsanların yaratdığı ilkin nümunələrdə onların Tanrı tərəfindən yaradıldığı və qorunduğu hər dəfə özünü göstərir.

İnsanın yaradılışının kosmosla bağlı olması daxildə çevrilmə motivləri ilə bağlıdır, burada kosmos xaosa çevrilir və beləliklə, yaradılmış nümunələrdə, insanların ilkin təsəvvürlərində çevrilmələr özünü göstərir.

E.İmaməliyev yazır ki, yaradılışla bağlı olan miflərin ümumi kosmoqonik sxemi xaosdan kosmosun yaranmasını əks etdirir. Burada dünyanın və insanın yaradılışı birgə təsəvvür olunur. Mifologiyada dünyanın və insanın yaranması ayrılmaz və vahid proses kimi təsəvvür olunur (7, 55).

Azərbaycan folklorunda çevrilmə motivi nəticəsində insanların yaranması ilə bağlı çoxlu sayda miflər və əfsanələr mövcuddur. Birinə diqqət edək:

"Lap qabaxlar Allahdan başqa heç kim yoxuymuş. Yer üzü də başdan-ayağa suyumuş. Allah bu suyu lil eliyir. Sonra bı lili qurudup torpax eliyir. Sonra torpaxdan bitkiləri cücərdir. Onnan sonra da torpaxdan palçıx qəyirip insannarı yaradır, onnara uruh verir" (1, 35).

Bu kosmoqonik mifdə biz eyni zamanda çevrilmə hadisəsini də görürük. Mətndə göstərilir ki, yer üzündə ilk öncə xaos (su) mövcud olmuş, daha sonra yer üzündəki canlılar yaranmışdır. İnsanlar torpağın palçığa və palçığın da insana çevrilməsi nəticəsində meydana gəlmişdir. Məkan, zaman, insan, cəmiyyət və s. bunların hamısı bir-biri ilə əlaqəli olub, daxili çevrilmələrlə əvəzlənərək meydana çıxır.

İnsanın yaradılışı ilə bağlı Azərbaycan folklorundakı motivlərdən biri də insanın dağdan doğularaq törəməsidir. Mətnlər göstərir ki, dağlar insanın yaradılışında iştirak etmiş, ilk insanın anası hesab olunmuşdur. Dağın uşaq doğması motivinə Azərbaycan əfsanələrində də tez-tez rast gəlirik.

"Oğuzun təəccübü" əfsanəsində dağ Oğuzun hamisidir. Göydən enən şüa dağa daha tez sancılır və dağ Oğuzu doğur (10, 348).

Burada fövqəltəbii qüvvənin təsiri altında dağ (torpaq) insana çevrilir, beləliklə, bəşər övladının yaradılışı ilə bağlı ibtidai düşüncədəki növbəti təsəvvürləri görmüş oluruq.

Türk mifopoetik dünya modelində dağlar mühüm yer tutmuşdur. Qədim türklərin dağlara münasibəti isə, xüsusilə, fərqlənmiş, dağ onların kosmoqonik görüşləri sistemində əhəmiyyətli yer tutmuşdur.

C.Bəydili (Məmmədov) yazır: "Kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ dünyanın tam mərkəzində ucalan sakral güc qaynağıydı və ulu başlanğıc, kök, soyun əsası, ana yurdun rəmzi kimi qavranırdı" (3, 87).

Dağın insan yaradılışında iştirak etməsi və insana çevrilməsinə aid folklorumuzda zəngin nümunələr vardır. R.Əliyev mifologiyada dağ-insan münasibətlərini aşağıdakı kimi izah edir:

1. Dağ insana çevrilir və ya canlı şəkildə şüurda qəbul edilir (antropomorfizm);
2. İnsan dağa çevrilir (reantropomorfizm). Daşa dönmək inamını da əcdada qayıdış kimi bura əlavə etmək olar;
3. Dağ uşaq doğur (5, 112).

"Bələk daşı" əfsanəsində deyilir ki, Nisə əmisi oğlu Sadığa ərə getmişdi. Ancaq uşağı olmurdu. Ona görə də narazılıq var idi. Nisə bir gün yuxuda görür ki, şiş qayanın başında yerdə bir bələkli oğlan uşağı qoyulub. Yuxudan durub dağa getdi, gördü, qayanın başında bir uzunsov daş var. Daşı qucağına götürdü. Daşı bələdi, kəndə gəldi, utandığından tövlədə qaranlıq bucağa qoydu, gündə 2-3 dəfə daşa baxıb gedirdi. Daş axırda doğrudan da uşağa çevrilir (10, 251-252).

Burada baş verən kosmoqoniya (yaradılış) qayanın, daşın uşağa çevrilməsi şəklində baş verir. 9 ayın tamamında daş uşağa çevrilir. İnsanlar arasında dağ ruhuna inam, dağın qoruyucu olması, dağın güclü olması, dağ ruhunun kişi şəklində təsəvvür olunması, dağ ruhunun qadın şəklində təsəvvür olunub qoruyucu ana kimi qəbul edilməsi, insanın dağa çevrilməsi, dağın insan kimi təsəvvür olunması, qayanın uşaq verməsi və s. təsəvvürlər dağın antropomorflaşdırılmasına səbəb olmuşdur.

**b) Heyvanın insana çevrilməsi:**

İlk əcdadının yaranması ilə bağlı folklor nümunələrində insanın ən əvvəl heyvan görkəmində təsəvvür edilməsi motivləri də var. Buna görə də tədqiqatçılar heyvan əcdadın daha sonra insan görkəmi qazandığını, insana çevrildiyini göstərərək, mifologiyada əvvəlcə zoomorfizmin hakim olduğunu, antropomorfizmin onun inkişafı kimi meydana gəldiyini vurğulayırlar.

Qeyd edək ki, biz təhlillər apardığımız zaman insanın yaranması ilə bağlı müxtəlif nümunələrin olduğunu əsas götürərək, məsələyə birmənalı şəkildə yanaşmağın düzgün olmadığını vurğulamaq istəyirik. Belə ki, nümunələrdə oxşarlıq kimi çıxış edən çevrilmə hadisələrinin bəziləri mifoloji izahda eyniyyət təşkil etmir. Məsələn, mifoloji düşüncədə qurdun insana çevrilməsi ilk olaraq ilkin əcdadın yaranması ilə əlaqədardırsa, digər tərəfdən, sonrakı dövrlərdə insanların ona qarşı yaranan inancları, onu kult olaraq qəbul etməsi ilə əlaqədar olaraq meydana çıxmış və mifoloji düşüncədə yeni vüsət almışdır. Burada birinci problemin öyrənilməsi sonrakının həllinə xidmət edir.

Qeyd edək ki, folklor nümunələrində insanlar qurddan yarandığı kimi, qurdlar da insanlara çevrilə bilir və bu cür mif və əfsanələr təkcə türk xalqları arasında deyil, dünya xalqları arasında geniş şəkildə yayılmışdır. "Şimali Amerika hindularının etnik mədəniyyətin-

də totem heyvana, əksər hallarda qurda çevrilmək insanın əcdadlarının ruhu ilə çulğalaşmasının ən yüksək həddi sayılır. Skandinaviyadakı insanlar inanırdılar ki, döyüşlərdə qorxu nə olduğunu bilməyən, düşmənləri pərən-pərən salan berserkerler qurda dönə bilirlər. Türk mifologiyasında qulyabanilər meşə və qəbiristanlıqlarda gecələr dolaşaraq insanları qorxudan, çox asanlıqla qurda çevrilən adamlar kimi təqdim olunurdu" (12).

V.V.Yevsyukov yazır ki, yeri heyvan obrazında təsvir edən miflər ən qədim və sadə miflərə aiddir (4, 71). Müəllif yenə də göstərir ki, kainatın insan bədəni ilə eyniləşdirilməsi dünyanın zoomodelindən cavandır (4, 79).

İbtidai insanlar ilkin əcdadı ən əvvəl heyvan görkəmində təsəvvür etmişlər. Daha sonra bu heyvan insan görkəmi qazanmışdır. Bu baxımdan, "Oğuznamə"nin uyğur versiyasında oğuzların ilk əcdadı Oğuz kağan öküz şəklində rəsm olunmuşdur (4, 67).

Əvvəldə dünyanın yaranması ilə bağlı bəhs etdiyimiz türk yaradılış əsatirində həm də insanın heyvandan yaranması ilə bağlı ibtidai təsəvvürlər əks olunmuşdur. Tanrı Qara xanın yaratdığı ilk insan uçmaq qabiliyyətinə malik qara qaz kimi təsvir olunmuşdur (9, 19). Lakin sonradan Qara xanın qəzəbi ilə bu bacarığından məhrum edilir və **indiki bir insana çevrilir**. Mifoloji təfəkkürdə insanın heyvandan yaranması şəklində mövcud olan ideyalar sonrakı mərhələdə heyvanın insana çevrilməsinə səbəb olan bir çox mətnlərinin meydana çıxmasına şərait yaradır.

Heyvanın insana çevrilməsi ilə bağlı folklorumuzdakı çoxsaylı nümunələrin bəzilərinə diqqət edək: "Bir avçı çöldə ceyrannan irasdaşır. Onu vırmax isdiyəndə görür ki, ceyran bir arvada çevrildi, acıxlı-acıxlı baxdı bına, sora yox oldu. Avçı qorxur, qəyidip gəlir əvinə, bir də avçılıq eləmir" (1, 53).

Digər bir variantda ovçunun qabağına çıxan təkə ağ saqqallı nurani qocaya çevrilir (1, 53).

Hər iki nümunədə heyvanın insana çevrilməsini görürük. Buradakı çevrilmə hadisəsini iki cəhətdən izah edə bilərik. Birincisi, qədim insan öz totem əcdadını insana çevirmiş, yaxud özünə oxşar şəkildə görür. İkincisi, buna səbəb mifoloji şüurda yeni yaranan bioloji insanın yaddaşında öz əcdadının ilkin şəklinin qorunması və ondan törəməsi haqqında olan fikirlərdir.

Qeyd edək ki, Azərbaycan nağıllarında pəri quşlar da inkarnasiya edərək qız cildinə düşə bilir. Yaxud əfsanələrdə müəyyən həya, utancaqlıq üzündən qız, qadın reinkarnasiya edərək göyərçinə və başqa quşlara çevrilə bilirlər.

Azərbaycan folklorunda insanın heyvana, eləcə də əksinə çevrilməsinə tez-tez təsadüf edirik ki, bu totemistik və animistik görüşlərlə bağlıdır. Bu mövzuya "Heyvanlar aləminin yaradılışı: zoomorfik çevrilmələr" bölməsində daha geniş şəkildə toxunacağıq.

**c) İnsan görkəmli varlıqların müasir insana çevrilməsi:**

Mifoloji şüurda yeni yaranan insanın yaddaşında öz əcdadı müxtəlif şəkildə əks olunmuş, daha sonra müasir formasına çevrilmişdir. Biz buna insandan (şikəst uşaqdan) əmələ gələn insanın (pəhləvan), adamcılların, yarı insan, yarı heyvan görkəmlilərin çevrilmələrini aid edirik. Folklorumuzda insan görkəmli varlıqların müasir insana çevrilməsinə aid zəngin nümunələr vardır.

Müxtəlif mifoloji mətnlərdə "Uzuxlar", "Ucubulıxlar", "Ucuqulu" və s. kimi adlandırılan tayfalarda insanların əvvəllər uzun boylu, iri gövdəli olduqları göstərilir. Lakin onlar öz səhvləri ucbatından əvvəlki görkəmlərini itirmiş, yeni formaya düşmüşlər. İlkin əcdadın ömrü və görkəminə dair mətnlərdəki çevrilmə motivi əvvəlki vəziyyətin yenisi ilə əvəzlənməsini özündə ehtiva edir. Maraqlıdır ki, mətnlərdəki çevrilmə birbaşa deyil, tədricən, əvəzlənmə ilə baş vermişdir. Belə ki, yeni formanın yaranması əvvəlkinin ölməsi və sonradan yeninin yaranması hesabına baş verir, geri dönüş yoxdur.

Mətnlərdən birində deyilir ki, "Qabaxlar insannar çox yekəymişlər. Təhçə dizdən aşağı əyaxlarının uzunluğu iki metrə yarım imiş. Gör onda bədənnəri nə qədər olar?! Onnar min

ildən çox yaşayırmışlar. Bi gün holarıın fikrinə allahlıx düşiy. Allah da holarıı kiçəltip bizim günümüzə saliy, ömürlərini də gödəldiy" (1, 48).

Nümunədə müasir insanın yaranmasından öncəki zaman və məkanın quruluşuna baxdığımız zaman insanların boyunun on metr olduğunu və min ildən artıq yaşadığını görürük. Kosmoqonik konflikt insanla onun yaradıcısı – Allah arasında yaranır. İnsan öz mövcud durumu ilə razılaşmır, onu pozub yeniləmək istəyir. Nəticədə insan öz səhvlərinə görə Allah tərəfindən cəzalandırılmış, ömürləri və fizioloji quruluşları müasir insan formasına dönüşmüş və beləliklə, çevrilmə baş vermişdir.

Çevrilmə, qeyd olundu ki, birdən-birə baş vermir, tədricən reallaşır. "Mifin məntiqinə görə, dünyanın bir durumundan o biri durumuna keçid birbaşa baş verə bilməz. İki kosmik durum arasında hökmən xaos mərhələsi olmalıdır" (7, 58). Buna görə də, digər nümunələrdə biz ucubılıxlarla yanaşı adi insanları görməyə başlayırıq.

Başqa bir mifdə deyilir ki, "qavaxlar Uzuxlar oluflar. Çox hündür imişlər. Hər biri bir çinar kimi... Uzuxlar bizim əjdadlarımız oluflar. Özü də çox yaşamışlar, yüz il, iki yüz il, üç yüz il. Belə eşitmişəm ki, günlərin bir günündə uzuxlardan biri meşəyə odun qırmağa gedifmiş. Orada gözünə qəribə bir şey dəyir. Bapbalaca. Oyucuna alıf evə gətirir. Onların bir ağsaqqalı qavağa gəlif deyir:

– Bu əcayif şey deyil. İnsandı. Vaxt gələjək, bunnar yer üzünü götürəjəy. Bizi də əvəz edəjəylər..." (1, 44).

Gördüyümüz kimi, mifoloji mətnlərdə təsadüf etdiyimiz uzuxlar – nəhəng insanlar sonralar tamamilə adi, kiçik insanlarla əvəz olunur. İnsanların cırlığına səbəb uzuxların ağsaqqalının da dediyi kimi, onların hiyləgərliyidir.

Qeyd edək ki, uzuxların nəhəngliyi bizim yadımıza qədim oğuzların nəhəng insanlar olması, o cümlədən iri qəbirlərə "oğuz qəbiri" deyilməsi faktını yada salır. Heç təsadüfi deyildir ki, S.Rzasoy Uzux adını mifik əcdad Oğuz adının fonetik dəyişməsi hesab edir (11, 797).

Folklor mətnləri insana çevrilmə ilə bağlı rəngarəng nümunələrlə zəngindir, bunlardan ən çox təsadüf edilənlər isə zəif, görkəmcə diqqət çəkməyən, şikəst doğulan uşaqların sonradan güclü, mərd, elinin-obanın qəhrəmanına, pəhləvanına çevrilməsi ilə bağlı nümunələrdir.

Başqa bir mətndə deyilir ki, bir tayfa varımış. Bı tayfanın başçısı sonsuzmuş. Çox qurbannan, nəzir-niyazdan sora bının bir oğlu olur. Uşax dörd-beş yaşına çatır, əmə yeriyəmmir, heş ayax üsdə durammır... Düşmannar basqın ediyillər, bı tayfanı qırıp-çatıllar. Bütün kişiləri öldürüp, arvat-uşağı qul ediyillər. Bı uşağı da şikəst olduğuna görə aparmıllar, atıllar bir daşın dibinə ki, qurt-quş yesin. Düşmannar tutduxları əsirləri də götürüp gedənnən sora bir canavar gəlir. Uşağı əmizdirir, sora götürüp aparır öz yuvasına, başdıyır bını saxlayıp bəsdəməyə. Neçə illər keçir, uşağın ayaxları açılır. Özü də bir pəhləvan olur... Sora gedir tayfasınnan sağ qalannarı da qurtarır, gəlirlər öz torpaxlarına, oğlanı başçı seçib başdıyıllar yaşamağa. O vaxtdan bı tayfıya qurtdar tayfası deyillər. Naxçıvanda Qurtdar məhləsi də onnardan qalmadır (1, 43-44).

Bu mifdə çevrilmə motivinin baş verməsini və mətnin strukturunu aşağıdakı kimi izah etmək olar:

– Çevrilməyə məruz qalacaq uşağın qeyri-adi doğuluşu, nəzir-niyazdan sonra doğulması;

– Uşaq əmə bilmir, yeriyə bilmir, ayaq üstə dayana bilmir;

– Çevrilmənin baş verməsi üçün ilk öncə xaosun yaranması: düşmənlər hücum edib tayfanı dağıdır, bütün kişiləri öldürür, qadınları əsir edir, şikəst uşağa isə toxunmurlar;

– Çevrilməyə zəmin yaradan ikinci əsas səbəb uşağın canavar tərəfindən bəslənməsidir. Bundan sonra çevrilmə baş verir. Şikəst uşağın ayaqları açılır, özü də pəhləvana çevrilir. Tək başına düşməni qırır, tayfasından geri qalan insanları xilas edərək, yenidən torpaqlarında tayfasını bərpa edir.

## Nəticə

*Türk tayfalarının yaşamında və düşüncəsində Tanrının üstün mövqe tutması, eləcə də tək Tanrıya inamın hakim ideologiyaya çevrilməsi, onların mifologiyasında təktanrıçılığın insanın yaradılışının transformativ amili kimi prioritet mövqeyini şərtləndirir. Folklor nümunələri üzərində apardığımız müşahidələr göstərir ki, insan, əsasən, üç transformativ keçid nəticəsində yaranır: a) Torpağın (palçığın) insana çevrilməsi; b) Heyvanın insana çevrilməsi; c) İnsan görkəmli varlıqların müasir insana çevrilməsi.*

*Türk tayfalarının yaşamında və düşüncəsində Tanrının üstün mövqe tutması, eləcə də tək Tanrıya inamın hakim ideologiyaya çevrilməsi, onların mifologiyasında təktanrıçılığın insanın yaradılışının transformativ amili kimi prioritet mövqeyini şərtləndirir. Təktanrıçılıq ideyası türklərlə qonşuluqda yaşayan, eləcə də onların qaynayıb-qarışdıqları xalqların da mifoloji təfəkkürünün formalaşmasına təsirsiz ötüşməmişdir.*

*İlk əcdadın yaranması ilə bağlı folklor nümunələrində insanın ən əvvəl heyvan görkəmində təsəvvür edilməsi motivləri də var. Buna görə də tədqiqatçılar heyvan əcdadın daha sonra insan görkəmi qazandığını, insana çevrildiyini göstərərək, mifologiyada əvvəlcə zoomorfizmin hakim olduğunu, antropomorfizmin onun inkişafı kimi meydana gəldiyini vurğulayırlar.*

*Mifoloji şüurda yeni yaranan insanın yaddaşında öz əcdadı müxtəlif şəkildə əks olunmuş, daha sonra müasir formasına çevrilmişdir. Biz buna insandan (şikəst uşaqdan) əmələ gələn insanın (pəhləvan), adamcılların, yarı insan, yarı heyvan görkəmlilərin çevrilmələrini aid edirik.*

### Ədəbiyyat siyahısı:


1. Azərbaycan mifoloji mətnləri / Tərtib edən: A.Acalov. Bakı: Elm, 1988, 196 s.
2. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, 424 s.
3. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı, Elm, 2003, 418 s.
4. Евсюков В.В. Мифы о вселенной. Новосибирск: Наука, 1988, 177 с.
5. Əliyev R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları. Bakı: Elm, 2014, 332 s.
6. Xəlilov P. Türk xalqlarının və slavyanların ədəbiyyatı. Birinci kitab. Yenidən işlənmiş 3-cü nəşr. Bakı: Maarif, 1994, 432 s.
7. İmaməliyev E.Q. Türk yaradiliş mifləri və Azərbaycan əfsanələri / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: 2016, 153 s.
8. Qafarlı R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika, Bakı: Elm və təhsil, 2015, 454 s.
9. Qədim türk ədəbiyyatı / Tərtib edəni N.Cəfərov. Bakı: Çaşıoğlu, 2006, 200 s.
10. Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri / Toplayanı, tərtib edəni S.P.Pirsultanlı. Bakı: Azərnəşr, 2009, 427 s.
11. Рзасой С. Мифогенез как семиотическая проекция этногенеза: опыт сопоставительного анализа нахских и огузских мифологических текстов / Этногенез и этническая история народов Кавказа. Сборник материалов Международного нахского научного конгресса (г. Грозный, 11-12 сентября 2018 г.). Грозный, 2018, с. 792-800
12. https://news.milli.az/society/33988.html

**Асмар Алиева**

**Формула трансформации при создании человека: трансформативные переходы**

Как фольклорный мотив трансформация в Азербайджанском фольклоре обладает богатыми типами и формами. Исследование этого мотива в первую очередь требует подхода в контексте мифологической семантики. Так как в основе мотива трансформации лежит присущая мифическому сознанию формула трансформации.

Согласно исследователям трансформации в фольклоре берут свое начало из «трансформаций» в природе. Р.Гафарлы пишет, что когда человек видел что-то меняющееся, превращал его в символический образ. Такие внешние превращения и возвращение в прежнее состояние приводили к представлению природы как живого существа. (58, 86).

С этой стороны исследование мотива трансформации в Азербайджанском фольклоре как научной проблемы в первую очередь требует изучения мифической семантики мотива, а затем исследования возможностей его функционирования в фольклорных текстах.

Трансформация, которая является одной из основных структурных формул Азербайджанского эпического фольклора, это преобразование выражаемое как видоизменение, метаморфоза, изменение формы, изменение лица, смена одежды, переодевание, превращение, изменение, изменчивость, а также маскировка – процесс трансформации в различных образцах устного народного творчества показывает себя в различных формах. Этот мотив, выраженный различными терминами, охватывает «трансформацию» как процесс со всеми внутренними этапами.

В мифическом сознании во всех имеющихся образцах, связанных с созданием важную роль играет формула трансформации. В общей космогонической схеме создания отражается, прежде всего, превращение хаоса в космос. Как видим из многих исследований создание вселенной, мира, а также других объектов, предметов происходит в результате превращения хаоса с научной точки зрения в космос. В мифологическом сознании создание охватывает различные уровни мира и люди отнесли этот метод к возникновению всех существ, которых они видят в окружающей среде.

***Ключевые слова:*** *трансформация, трансформативные переходы, фольклорные тексты, создание людей*

**Asmar Aliyeva**

**Formula of transformation in human creation process: transformative transitions**

As a motive of folklore, the transformation possesses rich types and forms in Azerbaijan folklore. Exploration of this motive requires firstly an approach in the context of mythological semantics. Because the transformation motive is based on the transformation formula typical for mythical thinking.

According to the researchers, transformations in the folklore take their origin from the “transformations in the nature”. According to R.Gafarli, if a person saw something which changed, he used to transform it into a symbolic image. Such external transformations and a process of turning to the previous form made to imagine nature as a living being (58, 86).

In this respect, exploration of a transformation motive as a scientific problem in the Azerbaijan folklore requires first of all investigation of the motive’s mythological semantics, and then its functionality potential in folklore texts.

The transformation, being one of the basic structural formulas of Azerbaijan epic folklore, is also expressed in other terms like change of image, metamorphosis, change of shape, change of face, change of dress, change of clothes, conversion, differentiation and

masking, and this transformation process reveals itself in different forms in different folklore examples. This motive, expressed in different terms, covers the "transformation" with all its internal phases as a process.

In mythical thinking, the formula of transformation plays an important role in all examples about creation. First of all, a general cosmogonical scheme of the creation reflects conversion of chaos into cosmos. According to some explorations, the creation of the universe, the world, as well as other objects and things happens scientifically through conversion of the chaos into the cosmos. The creation covers various levels of the world in mythological thinking, and the people think that all the creatures, which they see in the surrounding world, have appeared due to this method.

***Key words:*** *transformation, transformative transitions, folklore texts, creation of human beings*

Redaksiyaya daxil olma tarixi: 28.09.2019
Çapa qəbul olunma tarixi: 15.10.2019

Filologiya üzrə elmlər doktoru
**Seyfəddin Rzayev** tərəfindən çapa tövsiyə olunmuşdur.